**Azərbaycan sivilizasiyalı ölkədir, dünyada kino meydana çıxan kimi, o, Azərbaycanda da peyda olunmuşdur. Axı az-az ölkə tapılar ki, Avropada kino banilərinin kino yaratdıqları həmin vaxtdan bu ölkələrdə kino həqiqətən mövcud olmağa başlasın.**

**Heydər ƏLİYEV,**
**Ümummilli lider.**



**1998**-ci il may ayının 2-də Respublika sarayında dünya kinosunun 100 illiyinə həsr olunmuş "Festivallar festivalı"nın təntənəli açılış mərasimi keçirildi. Mərasimdə ulu öndər Heydər Əliyev də iştirak edirdi. O, özünün geniş məzmunlu çıxışına bu sözlərlə başladı: "Bu gün biz bir kəşf etdik ki, Azərbaycan kinosu 1898-ci ildən başlayır, onun yüz yaşı tamam olur. Sizin bunu bilməməyiniz pisdir. Elə biz də 1916-cı ili başlanğıc ili hesab edirdik. Əgər bunu hər hansı bir sənədlə rəsmiləşdirmək gərəkdirsə, onda təbii olaraq, fərman da vermək mümkündür...".



**14 may**

**Azərbaycan Kinosu Günüdür**



# Azərbaycan əsgəri
# Milli kinomuzun baş qəhrəmanı

Bəli, o tarixi andan 24, ümumiyyətlə, Azərbaycan kinosunun yaranmasından isə 124 il keçir. Mövcud olduğu dövr ərzində o, böyük inkişaf yolu keçmişdir. 1895-ci il martın 22-də Parisdə Lui-Lumyer qardaşları bəşər tarixində ilk dəfə olaraq elmi cəmiyyətdə filmlərini nümayiş etdirdilər. Həmin il dekabrın 28-də Parisdə Kaputsinov bulvarındakı "Qran kafe" zirzəmisində dünyada ilk kinoteatr hesab olunan "Hind salonu"nda onların öz filmləri ixtira etdikləri aparatla nümayiş olundu. Pullu seans verilmiş həmin məqam bəşər tarixinə kinonun yaranması günü kimi daxil oldu.

Azərbaycana isə kino Zaqafqaziya respublikaları içərisində daha əvvəllər - 1896-cı ilin ortalarında gəldi. 1898-ci ilin may ayında Bakıda ilk kino çəkilişi aparıldı. Beləliklə, XIX əsrin sonunda XX əsrin astanasında Fransada yaradılmış kino çox qısa zamanda özünə yaşamaq hüququ qazandı. Sənətlərin ən cavanı olmasına, yenicə ayaq tutub yeriməsinə baxmayaraq, kino musiqinin, memarlığın, ədəbiyyatın, rəssamlığın, heykəltəraşlığın, rəqslərin və teatrın çoxəsrlik təcrübəsindən istifadə etməyə başladı, texniki ixtira kimi meydana çıxsa da, dövrün ən iri kəşfləri ilə bir sırada durdu, insan zəkasının ən müxtəlif səhifələrini özündə birləşdirdi...



Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev həyatın bütün sahələri kimi, mədəniyyətin inkişafını da daim diqqət mərkəzində saxlayırdı. Bu mənada, onun Azərbaycan kinosunun inkişaf etdirilməsi istiqamətindəki rolu da xüsusi qeyd edilməlidir.

Kino insanların dünyagörüşünü formalaşdıran, tariximizi, milli adət-ənənələrimizi yaşadan, həyatımızın bütün sahələrinə nüfuz edən güclü ideoloji silahdır. Həm də, Azərbaycanın ilk milli kinorejissoru A.M.Şərifzadənin təbirincə, kino musiqidir, kino teatrdır, kino ədəbiyyatdır, kino aləmdir... Təsadüfi deyil ki, ümummilli liderimiz Heydər Əliyev kinoya çox yüksək qiymət verərək demişdir: "Kinematoqraf kütləvi tamaşaçı ilə yüksək sənət dili ilə danışmalıdır".

70-ci illərdə Heydər Əliyev Azərbaycanda qanunun aliliyinə söykənən ciddi idarəçilik intizamı yaratdı. Çünki o vaxtlar respublikanın sosial-iqtisadi durumu çox ağır idi, bəzi sahələrdə isə vəziyyət kritik həddə çatmışdı. Tezliklə öncüllər sırasına çıxan respublikada mədəniyyətimizin inkişafı da diqqət mərkəzində oldu.

Azərbaycan kinosunun böyük bir inkişaf dövrü Heydər Əliyevin adı ilə bağlıdır. Bir çox filmlərimiz məhz onun təşəbbüsü ilə yaradılmışdı: "Uzaq sahillərdə", "İstintaq", "Bir cənub şəhərində", "Nəsimi", "Babək" kimi filmlərin yaranması və onların sovet senzurasından keçməsində Heydər Əliyevin səyləri danılmazdır. Onun hakimiyyətə gəlişi ilə dondurulmuş kino istehsalı bərpa edildi, "Azərbaycanfilm"in fəaliyyətində canlanma hiss edilməyə başlandı. Dövlət sifarişi ilə filmlərin istehsalı kino xadimlərini yenidən hərəkətə gətirdi.

Bəli, sovet dövründə hər hansı film və ya əsər senzuranın sənətkarlar qarşısında qoyduğu tələblər çərçivəsindən kənara çıxırdısa, o filmə və ya əsərə qadağalar qoyulurdu. Məsələn, 1947-ci ildə çəkilmiş "Fətəli xan" bədii filmi kimi.

Azərbaycanın kinematoqrafiya naziri olmuş Rəsul Rza "Fətəli xan" kinolentini qayçılamağa icazə vermədiyinə görə Moskva filmi geri qaytarmışdı. Ən yaxşı halda belə filmlərin sovet dövləti üçün sərfəli olmayan epizodları kəsilib atılırdı. "Dəli Kür" və "Axırıncı aşırım" bədii filmləri bu taleyi yaşamışdılar...

Bu gün də Azərbaycan kinosuna qayğı azalmır. Prezident İlham Əliyev 2007-ci il fevralın 23-də "Azərbaycan kino sənətinin inkişaf etdirilməsi haqqında" Sərəncam imzalamışdır. Sərəncamda deyilir: "Azərbaycanda kino sənəti bir əsrdən artıq dövr ərzində əlamətdar hadisələrlə zəngin özünəməxsus inkişaf yolu keçmiş və xalqımızın mədəni-mənəvi həyatında mühüm rol oynamışdır... Azərbaycan kinosu tarixinin əsl yetkinlik dövrü sayılan 1960-1980-ci illərdə isə kino salnaməmizin unudulmaz səhifələrini təşkil edən və artıq mədəniyyətimizin qızıl fonduna daxil olan tarixi filmlər... yaradılmış, digər görkəmli əsərlər ekranlaşdırılmış, müasir mövzulu və sənətkarlıq baxımından diqqətəlayiq filmlər çəkilmişdir...".

Bu tarixi əhəmiyyətli sərəncamda Azərbaycan kinematoqrafiyasının inkişafında mühüm rol oynayacaq bir sıra vacib tədbirlərin tezliklə həyata keçirilməsi nəzərdə tutulurdu. Həmin sənəd kinematoqrafçılar qarşısında geniş perspektivlər açırdı.

Azərbaycan kinosu ötən bir əsrdən artıq dövrdə dəyərli əsərlər yaradıb. Xalqın bir çox nəsilləri kino ilə tərbiyələnib, kinonun təsiri altında formalaşıb, inkişaf edib, mədəniyyətə qovuşub. Ümumiyyətlə, bəşəriyyət qarşısında kinonun xidməti böyükdür, amma xalqımızın inkişaf yolunda Azərbaycan kinosunun xidməti əvəzsizdir. Bu, təkzibolunmaz faktdır.

SSRİ dağılandan sonra naşı adamların əlində qalmış respublika okeanda üzən, idarə olunmayan gəmiyə bənzəyirdi. O, əldən-ələ düşür, hakimiyyəti ələ keçirmək, mütləq hakim olmaq istəyənlər özlərinə silahlı dəstələr yaradırdılar. Bir dəstə başçısının sözü o birisinə xoş gəlməyəndə müxtəlif yollarla xəyanətə əl atırdılar. Bundan məharətlə istifadə edən Ermənistan havadarlarının köməyi ilə torpaqlarımızı hissə-hissə zəbt etdi, şəhər və kəndlərimizi xarabazara çevirdi. Əsrin faciəsi olan Xocalı soyqırımını törətdi.

Bu, elə dövr idi ki, bir tərəfdən "Sadval" deyilən təxribatçı qrup, digər tərəfdən özünü Talış-Muğan Respublikası elan etmiş başqa qrup qaragüruhçu yığnağı, digər tərəfdən də ağzında şirə qalmış erməni faşistləri Azərbaycanda ağalıq etmək, torpaqlarımızı dədə malı kimi öz aralarında bölmək xülyasına düşmüşdülər. Ancaq Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışı bütün bu hərc-mərcliklərin, xaosun qarşısını aldı. Ölkədə sabitlik yarandı. Ermənistanın Azərbaycana qarşı apardığı işğalçılıq niyyətini, Dağlıq Qarabağın Azərbaycanın ayrılmaz tərkib hissəsi olduğunu o, bütün dünyaya sübut etdi, ölkəmiz iqtisadi inkişaf yoluna çıxdı, Azərbaycan dünyanın ən ali məclislərində öz sözünü deməyə başladı.

Belə bir vaxtda Azərbaycan kinematoqrafçıları da gözləmə mövqeyində dayanmadılar, bütün bu illər ərzində baş verən hadisələrə öz münasibətlərini ekran vasitəsilə bildirməyə çalışdılar. Onlar "Cavad xan", "Hökmdarın taleyi", "Dolu" kimi filmlər yaratdılar. "Fətəli xan" da olduğu kimi, bu filmlər də Azərbaycanın real tarixi gerçəkliyini olduğu kimi ekranda təcəssüm etdirdi.

Nəhayət, xalqımız işğal altında olan torpaqlarımızın azad olunduğu günün də sevincini yaşadı. Azərbaycan ordusu hərb tarixində yeniliyə imza atdı, Zəfər salnaməsini yaratdı, gələcək əsərlərimizin, bədii, sənədli filmlərimizin əbədi mövzusuna çevrildi. İnanırıq ki, Azərbaycan kinematoqrafçıları bu tarixi məqamı düzgün dəyərləndirəcək, dünyanın ən nüfuzlu yarışmalarında layiqli yer tutacaq ordumuzun, xalqımızın qəhrəmanlığını əks etdirən filmlər istehsal edəcəkdir. Bu, o Zəfəri bizə yaşadan şəhidlərimizin, qazilərimizin, vətən torpaqları uğrunda döyüşən hər bir əsgərimizin, zabitimizin halal haqqıdır.

**Zümrüd QURBANQIZI,**
**"Respublika".**